Buzovna qəsəbəsi 8 nömrəli sanatoriya tipli internat məktəbində keçirilən yarışlarda Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli, Sağlamlıq imkanları məhdud valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 4 nömrəli Respublika xüsusi, Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi, E.Mirzəyev adına sağlamlıq imkanları məhdud uşaqlar üçün 6 nömrəli Respublika xüsusi, 8 nömrəli sanatoriya tipli və 11 nömrəli inteqrasiya təlimli internat məktəblərinin komandaları iştirak ediblər.

Şən startlar üzrə keçirilən yarışda 1-ci yeri 8 nömrəli, 2-ci yeri 6 nömrəli, 3-cü yeri 11 nömrəli, atletika idman növü üzrə isə 1-ci yeri 6 nömrəli, 2-ci yeri 5 nömrəli, 3-cü yeri 2 nömrəli internat məktəblərin komandaları tutublar.

Qaliblərə Təhsil Nazirliyinin diplom və medalları, hədiyyələr təqdim olunub.